# AZƏRBAYCAN RESPUBLİKASI
# ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİNİN KOLLEGİYASI

## QƏRAR

№ 12-1

Bakı şəhəri "30" avqust 2017-ci il

**"Məcburi dövlət sosial sığorta haqqının toplanması Qaydaları" və "Məcburi dövlət sosial sığortası üzrə sığorta iştirakçılarının uçotu Qaydaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondunun Kollegiyasının 2014-cü il 18 noyabr tarixli 04 nömrəli qərarında dəyişikliklər edilməsi barədə**

"Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 13 iyun tarixli 720-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-cı il 13 iyul tarixli 3089 nömrəli Sərəncamının 1.3-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"nin 5.10-cu bəndini rəhbər tutaraq Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. Azərbaycan Respublikası Dövlət Sosial Müdafiəsi Fondunun Kollegiyasının 2014-cü il 18 noyabr tarixli 04 nömrəli qərarı ilə təsdiq edilmiş "Məcburi dövlət sosial sığorta haqqının toplanması Qaydaları"nda və "Məcburi dövlət sosial sığortası üzrə sığorta iştirakçılarının uçotu Qaydaları"nda dəyişikliklər təsdiq edilsin (əlavə olunur).
2. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Aparatının Hüquq şöbəsinə (G.İsgəndərova) tapşırılsın ki, bu Qərarın qəbul edildiyi gündən 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.
3. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Aparatının Ümumi şöbəsinə (L.Abdullayeva) tapşırılsın ki, bu Qərarın surətinin çoxaldılaraq Nazirliyin aidiyyəti struktur bölmələrinə çatdırılmasını təmin etsin.

4. Qərarın icrasına nəzarət Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2014-cü il 28 fevral tarixli 11/7-32 nömrəli əmri ilə müəyyən edilmiş kurasiya bölgüsünə əsasən həyata keçirilsin.

| | |
|---|---|
| **Kollegiyanın sədri** | **Səlim Müslümov** |

AZƏRBAYCAN RESPUBLİKASININ ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİ * Ümumi şöbə

[illegible] İLƏ DÜZDÜR

Azərbaycan Respublikasının Əmək və Əhalinin
Sosial Müdafiəsi Nazirliyi Kollegiyasının
"30" avqust 2017-ci il tarixli 12-1 nömrəli
qərarı ilə təsdiq edilmişdir.

**Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun Kollegiyasının 2014-cü il 18 noyabr tarixli 04 nömrəli qərarı ilə təsdiq edilmiş "Məcburi dövlət sosial sığorta haqqının toplanması Qaydaları"nda və "Məcburi dövlət sosial sığorta üzrə sığorta iştirakçılarının uçotu Qaydaları"nda edilmiş dəyişikliklər**

**1.** Həmin Qərarla təsdiq edilmiş "Məcburi dövlət sosial sığorta haqqının toplanması Qaydaları" üzrə:

1.1. 5.18-ci bənddə "nağd və ya" sözləri "yalnız" sözü ilə əvəz edilsin;

1.2. 7.2-ci bənddə "kassa məxaric orderi," sözləri çıxarılsın;

1.3. 8.21.2-ci yarımbənd ləğv edilsin;

1.4. 9.16-cı bənddə "kassa və" sözləri çıxarılsın.

**2.** Həmin Qərarla təsdiq edilmiş "Məcburi dövlət sosial sığorta üzrə sığorta iştirakçılarının uçotu Qaydaları"na 17 nömrəli Əlavə - "Sığortaedənin məcburi dövlət sosial sığortası üzrə DSMF orqanında uçota alınması barədə bildiriş"in altıncı abzasında "nağd və ya" sözləri "yalnız" sözü ilə əvəz edilsin.